Əziz xanımlar, bayramınız mübarək!

9 (1418) 5-11 mart 2026-cı il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “Biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik”




Bu sözləri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında çıxışı zamanı söyləyib. *“Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur”*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “Alternativ enerji ilə bağlı planlarımız imzalanmış müqavilələrə əsaslanır”

*“Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik”*.

Bu sözləri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında çıxışı zamanı deyib.

“Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır”, - deyə dövlətimizin başçısı qeyd edib.

## Prezident İlham Əliyev İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxslərin həlak olması ilə əlaqədar başsağlığı verib. İran İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu dövlətimizin başçısını qarşılayıb.

Azərbaycan Prezidenti matəm kitabına ürək sözlərini yazıb.

Sonra dövlətimizin başçısı səfirlə söhbət edib. Prezident İlham Əliyev İrana səfərləri zamanı Ayətullah Seyid Əli Xamenei ilə görüşlərini həmişə ən xoş təəssüratlarla xatırlayacağını deyib.

Müctəba Dəmirçilu səfirliyə gələrək başsağlığı verdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

## Bölgələrimizdə müasir sosial infrastrukturun yaradılmasına yönəlmiş layihələr ardıcıl şəkildə davam etdirilir



Azərbaycan Prezidenti İlham Əliyev martın 2-də Bakı Ekspo Mərkəzinin həyətində məişət tullantıları daşıyan texnikalarla tanış olub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi ilə Gəncə avtomobil zavodunda istehsal edilən bu texnikalar müxtəlif şəhər və rayonlara göndəriləcək.

Ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov və "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyev layihə barədə dövlət başçısına məlumat veriblər. Bildirilib ki, ümumilikdə layihə çərçivəsində hər birinin tutumu 22 kubmetr olan 70 kommunal texnika istehsal edilib. Kommunal texnikanın iki toplantı meydançasından - Bakı şəhərində Ekspo Mərkəzinin qarşısından və Gəncə şəhərində avtomobil zavodunun həyətindən Azərbaycanın 58 şəhər və rayonuna göndərilməsi nəzərdə tutulur.

Azərbaycanda paytaxt Bakı ilə yanaşı, bölgələrimizin inkişafı, orada müasir sosial infrastrukturun, o cümlədən parkların, yaşıllıq və meşə zolaqlarının yaradılması və bununla da ümumilikdə ölkəmizin ekoloji durumunun yaxşılaşdırılmasına yönəlmiş layihələr ardıcıl şəkildə davam etdirilir. Bu baxımdan məişət tullantıları daşıyan texnikaların şəhər və rayonlarımıza göndərilməsi bir neçə vacib amili özündə birləşdirir. Belə ki, bu, ilk növbədə regionlarda kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi və sanitariya-gigiyena vəziyyətinin yaxşılaşdırılmasına töhfə verəcək. Layihənin daha bir mühüm məqamı odur ki, bu texnikalar yerli istehsaldır.

## “Azərbaycanın qaz təchizatı İttifaqın enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq”

“Rusiya qazından asılılığımızı davamlı şəkildə azaltdığımız dövrdə Azərbaycanla tərəfdaşlığımızın vacibliyi yalnız artacaq, Avropanın enerji təhlükəsizliyinə və Azərbaycan iqtisadiyyatına fayda verəcək”.

Bunu Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında çıxışı zamanı deyib.

O bildirib ki, Trans-Adriatik Boru Kəməri ilə kommersiya daşımaları başladığı dövrdə Azərbaycan 2024-cü ildə Avropa İttifaqının alıcılarından təbii qazın ixracına görə təxminən 24 milyard avro qazanıb.

Mövqeyini açıq şəkildə bəyan etməyi fürsət adlandıran komissar vurğulayıb: *“Azərbaycanın qazı, qaz təchizatı Avropa İttifaqının enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq”*.

## “Azərbaycan enerji ehtiyatlarının etibarlı tranziti ölkəsi rolunu oynayır”

Bu fikri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında çıxışı zamanı söyləyib.

Dövlətimizin başçısı vurğulayıb: *“Biz Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edirik və bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır.*

*Biz Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək iqtidarındayıq və bunun üçün infrastruktura malikik”*.

## “2028-ci ildə “Şahdəniz”in yeni mərhələsi üzrə hasilatın başlanmasını gözləyirik”

Bu barədə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında çıxışı zamanı bildirib.

“İki-üç il ərzində “Abşeron” yatağının tammiqyaslı işlənmə mərhələsinin başlanmasını gözləyirik ki, bu da “Abşeron”dan qaz hasilatını üç dəfə artıracaq. Eyni zamanda, “Ümid” yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması gözlənilir”, - deyən dövlətimizin başçısı əlavə edib ki, 2028-ci ildə “Şahdəniz”in yeni mərhələsi üzrə hasilatın başlanmasını gözləyirik. Qeyd olunan bütün hasilat profilləri maksimum istehsal səviyyəsində 10-15 milyard kubmetr həcmində əlavə qaz əldə etməyə imkan verəcək.



# Auditorlar Palatası regionlarda auditi inkişaf etdirir



Azərbaycan Respublikasında həyata keçirilən ardıcıl və məqsədyönlü iqtisadi islahatlar fonunda şəffaflıq və hesabatlılıq prinsiplərinin təmin olunması dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan müasir iqtisadi inkişaf modeli maliyyə intizamının gücləndirilməsini, idarəetmədə səmərəliliyin artırılmasını, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını və investisiya cəlbediciliyinin yüksəldilməsini zəruri şərt kimi müəyyən etmişdir. Bu strateji hədəflərin reallaşdırılmasında audit institutu mühüm nəzarət və təminat mexanizmi kimi çıxış edərək iqtisadi münasibətlər sistemində etibarlılığın və şəffaflığın əsas dayaqlarından birinə çevrilmişdir.

2026-cı il 27 fevral tarixində Azərbaycan Respublikasının Auditorlar Palatasının nümayəndələrinin Lənkəran Dövlət Universitetinə səfəri məhz bu baxımdan regionlarda audit peşəsinin inkişafına, müasir kadr hazırlığı modelinin tətbiqinə və ali təhsil müəssisələri ilə peşəkar qurumlar arasında institusional əməkdaşlığın yeni mərhələyə qədəm qoymasına xidmət edən mühüm hadisə kimi xarakterizə olunur. Səfər çərçivəsində keçirilən "Prezident İlham Əliyevin iqtisadi siyasətində şəffaflıq prinsipinin təmin olunmasında auditin rolu" mövzusunda tədbir dövlətin müəyyən etdiyi iqtisadi kurs ilə audit fəaliyyətinin strateji vəhdət təşkil etdiyini bir daha nümayiş etdirmişdir.

Tədbirin açılış mərasimində çıxış edən Lənkəran Dövlət Universitetinin rektoru, professor Natiq İbrahimov ali təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdən birinin əmək bazarının tələblərinə cavab verən, müasir bilik və bacarıqlara malik peşəkar kadrların hazırlanması olduğunu vurğulamış, bu istiqamətdə Auditorlar Palatası ilə əməkdaşlığın genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını qeyd etmişdir. Bildirilmişdir ki, nəzəri biliklərin praktiki vərdişlərlə tamamlanması, tələbələrin real iş mühiti ilə tanışlığı və beynəlxalq təcrübəyə çıxış imkanlarının yaradılması təhsilin keyfiyyətinin yüksəldilməsinin əsas prioritetlərindəndir.

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov çıxışında ölkədə həyata keçirilən iqtisadi islahatların dərinləşməsi şəraitində auditin rolunun daha da artdığını diqqətə çatdıraraq qeyd etmişdir ki, müasir mərhələdə audit yalnız maliyyə hesabatlarının düzgünlüyünün yoxlanılması ilə məhdudlaşmır, eyni zamanda risklərin idarə olunması, korrupsiyaya və maliyyə pozuntularına qarşı mübarizə, rəqəmsal transformasiya proseslərinin qiymətləndirilməsi, dayanıqlı inkişaf və korporativ idarəetmə prinsiplərinin tətbiqi kimi mühüm istiqamətləri əhatə edir. Bildirilmişdir ki, süni intellekt texnologiyalarının və data analitikası alətlərinin audit prosesinə inteqrasiyası risklərin daha operativ müəyyənləşdirilməsinə, böyükhəcmli məlumatların dərin təhlilinə və audit keyfiyyətinin yüksəldilməsinə geniş imkanlar yaradır. Bu isə audit fəaliyyətinin iqtisadi təhlükəsizliyin təmin olunmasında strateji alətə çevrildiyini göstərir.



Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədov isə "İqtisadi inkişafda şəffaflıq amili və onun təmin olunmasında auditin rolu" mövzusunda çıxış edərək audit peşəsinin institusional inkişafının təmin edilməsi, beynəlxalq standartların tətbiqi, keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi və gənclərin bu sahəyə marağının artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, müasir çağırışlar auditorlardan yalnız peşəkar bilik deyil, eyni zamanda yüksək etik dəyərlər, analitik düşüncə, rəqəmsal texnologiyalardan istifadə bacarığı və strateji yanaşma tələb edir.

Auditorlar Palatasının Kadr hazırlığı idarəsinin rəisi Elmira Hacıyeva auditor kadrlarının hazırlanmasının müasir modelindən bəhs edərək bildirmişdir ki, bu gün peşəkar auditorun formalaşması kompleks və çoxşaxəli yanaşma tələb edir. Universitet təhsili ilə peşəkar fəaliyyət arasında sistemli əlaqənin qurulması, tədris proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması, rəqəmsal audit, data analitikası və süni intellekt alətlərindən istifadə bacarıqlarının formalaşdırılması yeni hazırlıq modelinin əsas komponentlərini təşkil edir. Vurğulanmışdır ki, gələcəyin auditoru yalnız mövcud vəziyyəti qiymətləndirən deyil, eyni zamanda riskləri qabaqcadan müəyyən edən, strateji qərarların qəbuluna töhfə verən yüksək ixtisaslı mütəxəssis olmalıdır.

Səfər çərçivəsində Auditorlar Palatası ilə Lənkəran Dövlət Universiteti arasında əməkdaşlıq haqqında sazişin yenilənmiş variantının imzalanması bu əlaqələrin daha sistemli və məqsədyönlü xarakter almasına zəmin yaratmışdır. Saziş audit üzrə mütəxəssislərin hazırlanması, birgə elmi-praktiki konfransların və seminarların təşkili, tələbələrin istehsalat təcrübəsinin keçirilməsi, tədris-metodiki vəsaitlərin hazırlanması, auditor peşəsinin gənclər arasında təşviqi və elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi kimi mühüm istiqamətləri əhatə edir. İnanırıq ki, bu əməkdaşlıq regionlarda insan kapitalının inkişafına, peşəkar kadr potensialının gücləndirilməsinə və təhsil ilə real sektor arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfə verəcəkdir.

Tədbir çərçivəsində tələbələrlə keçirilən sual-cavab və müzakirələr xüsusi maraqla qarşılanmışdır. Gənclərin auditor peşəsinə çıxış imkanları, auditor adı almaq üçün tələb olunan mərhələlər, beynəlxalq sertifikatların rolu, rəqəmsal texnologiyaların auditə təsiri və beynəlxalq əmək bazarında fəaliyyət perspektivləri ilə bağlı ünvanladıqları suallar bu sahəyə artan marağın göstəricisi kimi dəyərləndirilmişdir. Bildirilmişdir ki, müasir dövrdə beynəlxalq peşəkar kvalifikasiyalar auditorlara qlobal əmək bazarına inteqrasiya etmək imkanı yaradır və Azərbaycan auditorlarının beynəlxalq audit xidmətləri bazarında təmsil olunması üçün real zəmin formalaşdırır.

Çıxışlarda rəqəmsal transformasiya proseslərinin audit fəaliyyətinə təsiri xüsusi olaraq qeyd olunmuş, süni intellekt və data analitikası texnologiyalarının tətbiqinin auditin keyfiyyətini yüksəltməklə yanaşı, risklərin daha operativ və dəqiq qiymətləndirilməsinə imkan yaratdığı vurğulanmışdır. Bu yanaşma auditin yalnız nəzarət funksiyasını deyil, eyni zamanda məsləhətçi və strateji tərəfdaş rolunu gücləndirir.

Tədbirdə Auditorlar Palatasının üzvləri – Fərhəddin Hüseynov ("L.Ş Audit" MMC-nin direktor-auditoru), Əlimuxtar Bağırov ("İnter-Audit" MMC-nin direktor-auditoru), Nazim Axundov (sərbəst auditor), Balağa Bağırov ("ABB Audit and Finance" MMC-nin direktoru), Elşən İbadov ("NİAC" MMC-nin direktor-auditoru) iştirak etmiş, tədbir çərçivəsində keçirilən müzakirələrdə, tələbələrlə aparılan sual-cavab sessiyasında və peşəkar fikir mübadiləsində fəallıq nümayiş etdirmişlər. Onların auditor peşəsinin praktiki tərəfləri, audit bazarında mövcud çağırışlar, beynəlxalq təcrübənin tətbiqi və gənc mütəxəssislərin peşəyə hazırlanması ilə bağlı səsləndirdikləri fikirlər iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.



*Azərbaycan Respublikası Auditorlar Palatasının Kadr Hazırlığı idarəsinin rəisi Elmira Hacıyeva*

Tədbir çərçivəsində Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılmasının 30 illik yubileyi münasibətilə təsis edilmiş yubiley döş nişanları adıçəkilən auditorlara təqdim olunmuşdur.

Eyni zamanda Auditorlar Palatası tərəfindən nəşr olunmuş audit, mühasibat uçotu, peşə etikası, keyfiyyətə nəzarət və beynəlxalq standartlara dair elmi və metodiki ədəbiyyatın Lənkəran Dövlət Universitetinin kitabxana fonduna təqdim edilməsi həyata keçirilmiş, bu təşəbbüs universitetdə audit sahəsi üzrə elmi-metodiki təminatın gücləndirilməsinə, tələbələrin və gənc tədqiqatçıların ixtisas biliklərinin artırılmasına mühüm töhfə kimi dəyərləndirilmişdir.

Tədbirdə qeyd olunmuşdur ki, audit peşəsi müasir dövrdə gənclər üçün geniş karyera imkanları açan, yüksək intellektual potensial tələb edən və beynəlxalq miqyasda rəqabət qabiliyyətli sahələrdən biridir. Bu istiqamətdə həyata keçirilən maarifləndirici tədbirlər, ali təhsil müəssisələri ilə qurulan səmərəli əməkdaşlıq və müasir kadr hazırlığı modeli ölkədə audit fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə xidmət edir.

Lənkəran Dövlət Universitetində keçirilən tədbir bir daha təsdiq etdi ki, audit institutu ölkənin iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olmaqla yanaşı, şəffaflığın təmin olunması, maliyyə intizamının gücləndirilməsi və dayanıqlı iqtisadi artımın təmin edilməsində əvəzsiz rol oynayır.

Ümid edirik ki, regionlarda bu tipli tədbirlərin keçirilməsi davamlı xarakter daşımalıdır və nəticə olaraq Auditorlar Palatası ilə ali təhsil müəssisələri arasında qurulan bu cür sistemli və məqsədyönlü əməkdaşlıq Azərbaycan auditinin beynəlxalq standartlara uyğun inkişafına, regionlarda peşəkar kadr potensialının gücləndirilməsinə və gənclərin bu sahəyə marağının daha da artırılmasına mühüm töhfə verəcəkdir.

Yaxın Şərqdə

# Yaxın Şərqdə müharibənin uzanması Avrozonada inflyasiyanı artıra bilər



Avropa Mərkəzi Bankı (ECB) Yaxın Şərqdə münaqişənin uzanmasının Avrozonada inflyasiyanın yenidən sürətlənməsi riskini artırdığını bildirib.

AZƏRTAC xəbər verir ki, qurumun baş iqtisadçısı martın 3-də enerji qiymətlərində artımın xüsusilə qısa müddətdə qiymətlərə yuxarı təzyiq göstərməsi ilə bağlı xəbərdarlıq edib. "İstiqamət baxımından enerji qiymətlərinin yüksəlməsi inflyasiyaya, xüsusən də qısa müddətdə artırıcı təsir göstərir", – deyə ECB-nin baş iqtisadçısı Filip Lane bildirib.

ABŞ və İsrailin İran İslam Respublikasına qarşı hücumları və ardınca Tehranın cavab tədbirləri regionda enerji axınlarını pozub. Bazar ertəsi 6 faizdən çox bahalaşan neft qiymətləri bu gün də artımını davam etdirib.

Filip Lanenin sözlərinə görə, təsirin miqyası və ortamüddətli inflyasiya perspektivləri münaqişənin İranla nə qədər genişlənəcəyi və nə qədər davam edəcəyindən asılı olacaq. Onun fikrincə, Yaxın Şərqdə eskalasiya ECB-nin nəzərdən keçirdiyi əsas risk ssenarilərindən biridir və qurum vəziyyəti yaxından izləyəcək.

# Davam edən müharibə Körfəzdə dəniz nəqliyyatını iflic edib

Hörmüz boğazının bağlanmasından sonra Körfəzin şimalında ən azı 167 gəmi hərəkətsiz qalıb.

AZƏRTAC xəbər verir ki, bu haqda "France İnter" radiosu məlumat yayıb.

Bildirilir ki, blokadada qalan gəmilər arasında neft və ya qaz daşıyan 127 iri tanker var. Həmçinin digər yükləri daşıyan 60 konteyner gəmisi də bölgədə gözləmək məcburiyyətindədir.

Bloklanmış gəmilər arasında Fransa bayrağı altında üzən və ya fransız şirkətlərinə məxsus 60 gəmi, dünya lideri olan İtaliya-İsveçrə mənşəli MSC şirkətinə məxsus 20 gəmi var. Bundan başqa, bəzi digər gəmilərin də bölgədə blokadada qalması ehtimal olunur. Lakin təhlükəsizlik səbəbi ilə bəzi kapitanlar gəmilərin yerini müəyyən etməyə imkan verən siqnal cihazlarını söndürdüyündən, onların mövqeyini izləmək mümkün deyil.

Sözügedən 60 fransız gəmisi Hörmüz boğazını keçdikdən sonra Fransa Hərbi Dəniz Qüvvələri tərəfindən verilən göstərişlə sığınacaq mövqeyinə çəkilib. Vurğulanıb ki, Fransa gəmiləri prioritet hədəf hesab edilmir.

Fransanın nəqliyyat və dəniz daşımaları üzrə şirkətinin nümayəndəsi Loran Martensin fikrincə, ən ciddi iqtisadi təsir neftin qiymətinin artması olacaq və bu da bir neçə həftə ərzində Avropada yanacaq qiymətlərinin bahalaşmasına səbəb ola bilər.



# “Zərif Zəfər” – qadınların uğur və həmrəylik platforması












Sahibkar Qadınlar İctimai Birliyinin 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş “Zərif Zəfər” adlı tədbiri keçirilib.

Bu barədə AZƏRTAC-a İctimai Birlikdən məlumat verilib.

“Sahibkar Qadınlar” İctimai Birliyinin sədri Zemfira Ağayeva tədbirin açılışında öz təəssüratlarını bölüşərək bildirib ki, “Zərif Zəfər” qadınların daxili gücünü, iradəsini və zərifliyini bir araya gətirən platformadır. Bu tədbir yalnız bir görüş deyil, həm də ilham, motivasiya və uğura aparan yolun qeyd olunduğu xüsusi gündür. ***Tədbirin əsas məqsədi qadınların həm şəxsi, həm də peşəkar həyatlarında qazandıqları uğurları paylaşmaq, bir-birinə dəstək olmaq və yeni hədəflərə doğru birlikdə addımlamaqdır.***

Digər çıxış edənlər öz həyat hekayələrini, uğur sirlərini və qarşılaşdıqları çətinlikləri necə aşdıqları barədə təcrübələrini bölüşüblər. “Zərif Zəfər” göstərir ki, zəfər yalnız böyük nəticələr deyil, hər gün atılan kiçik, amma inamlı addımların cəmidir. Zəriflik isə zəiflik deyil, əksinə, gücün estetik ifadəsidir. ***Tədbirin fəxri qonağı – Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedrasının dosenti, “Fakhriya Khalafova” moda evinin təsisçisi Fəxriyə Xələfova çıxışında qeyd edib ki, “Zərif Zəfər” hər qadının daxilindəki qalib ruhun səsləndiyi, uğurun zərif addımlarla gəldiyini sübut edən bir zəfər hekayəsidir.***

Tədbirdə Milli Məclisin deputatları Ziyad Səmədzadə və Ceyhun Məmmədov çıxış edərək xanımları 8 Mart bayramı münasibətilə təbrik ediblər. Onlar Zemfira Ağayevaya maraqlı və yadda qalan tədbirlərə görə təşəkkürlərini bildiriblər.

Çıxış edənlər qadınların cəmiyyətdə artan rolundan, onların sahibkarlıq, mədəniyyət və ictimai həyatda qazandıqları nailiyyətlərdən söz açaraq, bu kimi təşəbbüslərin davamlı olmasının vacibliyini vurğulayıblar.

# “Uğurlarımın sirri – istək, təşəbbüs, inam, zəhmətsevərlik və inadkarlığımdır”...



***İxtiraçı dedikdə, ağlımıza lampanı icad edən Tomas Edison, cazibə qüvvəsini tapan Nyuton, ya da telefon ixtiraçısı olan Aleksandr Qraham Bell gəlir. Ağlımıza ilk anda gələn bütün ixtiraçıların ortaq xüsusiyyətləri isə onların kişi olmasıdır. Zəriflik, gözəllik sözlərini özündə cəmləşdirən qadınlar elm dünyasında əhəmiyyətli kəşflər edib, tarixin istedadlı və məşhur qadın elm adamları olublar.***

Ötən yüz il ərzində fizika, kimya və təbabət sahəsində 17 alim-qadın ədəbiyyat, 31 qadın isə iqtisadiyyat və sülhün dəstəklənməsi üzrə Nobel mükafatına layiq görülmüşdür.

Bu gün dünyada qadınların həyatımızın bütün sahələrində, istər siyasət, istər iqtisadiyyat, istərsə də mədəniyyət sahələrində uğurlu fəaliyyəti zərif cinsin nümayəndələrinin necə böyük bir qüvvəyə sahib olduqlarının təsdiqidir. Qadınlar elm sahəsində aktiv iştirak edir, çalışdıqları strukturlarda öz töhfələrini verirlər. İxtiraçı qadınlar, mühəndis qadınlar, müxtəlif “ilklər”ə imza atan qadınlar həyatımızı sürətlə dəyişməkdədirlər. Belə ixtiraçılardan biri də azərbaycanlı gənc ixtiraçı Reyhan Camalovadır.

2017-ci ildə Akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərinin (“İstək” liseyi) doqquzuncu sinif şagirdi, 15 yaşlı Reyhan Camalova Hindistanda keçirilən Qlobal Sahibkarlıq Sammitinə ixtirası ilə qatılıb və böyük uğura imza atıb. O, 2017-ci ildə qurulan Reynerci (Rainergy) startapının təsisçisidir.

Tədqiqatlar göstərir ki, dünyada milyardlarla litr yağış suyundan düzgün istifadə olunsa, o zaman ondan potensial enerji kimi istifadə etmək mümkündür. Bu problemi həll etmək üçün Reyhan öz məktəbli dostları və fizika müəllimləri ilə birlikdə yağış suyundan enerji istehsal edən “Reynerci” (Rainergy) qurğusunu yaradıb. Reyhanın ixtirası olan cihaz yağış suyundan enerji əldə edərək həm ekologiyaya, həm də davamlı enerjiyə töhfə verməkdədir. 2018-ci ildə qazandığı uğur sayəsində Reyhan Camalova "Rainergy" adlı layihəsi ilə Forbes jurnalının 30 yaşdan aşağı 30 azyaşlı siyahısına düşüb. ***“Reynerci” layihəsi “Climatelaunchpad” yarışmasının Azərbaycan finalında "Tamaşaçıların ən sevimli startapı” adına layiq görülüb. Reyhan Camalovanın “Climatelaunchpad” yarışmasında iştirakına AMEA-nın Yüksək Texnologiyalar Parkı sponsorluq edib.***

Reyhan Camalova 28-30 noyabr 2017-ci ilin tarixlərində ABŞ və Hindistanın birgə təşkilatçılığı ilə Hindistanda təşkil olunan “Qlobal Sahibkarlıq Sammiti 2017” “Rainergy” layihəsi ilə Azərbaycanı təmsil etmişdir. ABŞ prezidenti Trampın baş müşaviri və Prezidentin Hindistanda keçirilən Qlobal Sahibkarlıq Sammitindəki nümayəndəsi İvanka Tramp Reyhan Camalovanı belə təqdim edib: ***“Azərbaycandan olan Reyhan Camalova da bu gün bizimlə birlikdədir. Reyhanın 15 yaşı var. Lakin belə gənc yaşda olması onu yağış suyundan enerji istehsal edən şirkətini yaratmaqdan çəkindirmədi. Reyhanın güclü bir şüarı var – "Hər dəfə bir evi işıqlandır". Reyhan, sənin işıqlandırdığın hər bir ev dünyanı işıqlandırır. Sənin parlaq zəkan və gərgin əməyin bizim hamımızı ruhlandırır. Təşəkkür edirəm”.***

150 ölkə sahibkarlarının iştirak etdiyi Qlobal Sahibkarlıq Sammitində Reyhan Camalova ilə birlikdə iştirak edən mentoru Leyla Tağızadə də bütün dünyadan 1500 iştirakçının təqdim etdiyi layihələr arasında Azərbaycan təmsilçisinin ixtirası ilə fərqlənməsinin böyük qürur doğurduğunu bildirib: "ABŞ Prezidentinin baş müşaviri və dövlət başçısının qızı İvanka Trampın belə bir mötəbər tədbirdə Azərbaycanın adını xüsusi çəkməsi, Reyhanın ixtirasını yüksək qiymətləndirməsi hər kəsdə Azərbaycan gəncliyinin elmi, biliyi, istedadı və bacarığı barədə xoş təəssüratlar yaratdı".

Reyhanın uğurları bununla bitmir. Azərbaycanlı gənc sahibkar Reyhan Camalova 2021-ci il iyulun 22-25-də Almaniyanın Münxen şəhərində keçirilmiş virtual “One Young World” (OYW) – 2021 Ümumdünya gənclər sammitində BP-nin beynəlxalq nümayəndə heyətinə qatılıb. “BP-Azerbaijan” şirkətindən verilən məlumata görə, R.Camalova BP qrupunun dünya üzrə 350 nəfərdən artıq ərizəçi arasından seçdiyi altı “Xalis sıfır” təqaüdçüsündən biri olub.

Reyhan həyatında baş vermiş bir görüşü - Azərbaycanın Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə görüşünü heç vaxt unutmayacağını deyir: “Mehriban Əliyeva məndən layihə, nailiyyətlərimiz və planlarımız haqqında ətraflı soruşdu. Söhbətə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da qoşuldu. Təxminən yarım saat söhbət etdik. Bu, çox ilhamverici idi! Heydər Əliyev Fondu məni dəstəkləyir. Onlar mənim ilk Forbes 30 Under 30 Qlobal Sammitində iştirak etmək üçün İsrailə səfərimi maliyyələşdirdilər.

Bundan əlavə, fonddan aylıq təqaüd alıram. Bu dəstəyə görə Heydər Əliyev Fonduna və onun prezidenti Mehriban Əliyevaya səmimi minnətdarlığımı bildirmək istəyirəm”.

İxtirası ilə dünya mediasının diqqətini çəkən qubalı məktəbli Reyhan Camalova hazırda Pensilvaniya Universitetinin məzunudur.

# Beynəlxalq reytinqdə 3-cü yeri tutan azərbaycanlı gənc

Yeni il təzəcə girmişdi. 2026-cı ilin ilk günündə - yanvarın 1-də bir azərbaycanlı ailəsində sevinc sevincə qarışdı. Videobağlantı ilə gənc qız Sona Quliyevaya nüfuzlu beynəlxalq reytinqdə ilk yerlərdən birinə layiq görüldüyü xəbəri verildi.

İlin ilk günlərində bu sevindirici xəbər sürəltə yayıldı. Saytlar və sosial şəbəkələr yazırdı ki, Sona aerokosmik tədqiqatlar üzrə nüfuzlu beynəlxalq “Top 100 Women in Aerospace & Aviation 2025” reytinqində üçüncü yeri tutub. O, dünya üzrə 200-dən artıq namizəd arasından seçilərək aerokosmik və aviasiya sahəsində fəaliyyət göstərən tanınmış qadın mütəxəssislər sırasında yer alıb.




Sona özü beynəlxalq uğuru ilə bağlı belə deyir: ***“Mənim üçün bu tanınma artıq nominasiyada iştirak və finalçıların siyahısına düşməklə başlamışdı. Açığı, üçüncü yerə layiq görüləcəyimi gözləmirdim. Bu, dürüst və ardıcıl əməyin görünən olduğunu, seçilmiş yolun və görülən işin mənalı olduğunu bir daha təsdiqlədi. Mən bu nəticəni dərin minnətdarlıq və məsuliyyət hissi ilə qəbul edirəm”.***

Azərbaycanlı mütəxəssis - Əmircanlı gənc alim Sona Quliyevanın “Top 100 Women in Aerospace & Aviation 2025” reytinqində ilk üçlükdə yer alması ölkənin aerokosmik tədqiqatlar, elm, innovasiya və yüksək texnologiyalar sahəsində artan nüfuzunun və potensialının, eləcə də azərbaycanlı alimlərin beynəlxalq səviyyədə tanınmasının göstəricisi kimi qiymətləndirilir.

Qeyd edək ki, “Top 100 Women in Aerospace & Aviation” reytinqi aerokosmik və aviasiya sahəsində real töhfə vermiş qadın mütəxəssislərin tanınmasına yönəlmiş qlobal təşəbbüsdür. Reytinq bir neçə il əvvəl təsis olunub və 2025-ci il siyahısı layihənin növbəti buraxılışıdır. Cari buraxılış çərçivəsində 230-dan çox namizəd qeydə alınıb, yekun nəticələr isə peşəkar ictimaiyyətin rəy və səsverməsi əsasında formalaşdırılıb.



# AZSIĞORTA ASC-nin 31 dekabr 2025-ci il tarixinə BALANS HESABATI

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I .UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **334 967,50** | **611 579,89** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | **0,00** | **0,00** |
| **Daşınmaz əmlaka investisiyalar** | **0,00** | **0,00** |
| **Qeyri-maddi aktivlər** | **529 703,82** | **482 571,31** |
| **Təxirə salınmış vergi aktivləri** | **314 144,22** | **0,00** |
| **Uzunmüddətli debitor borcları** | **0,00** | **0,00** |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **9 799 851,64** | **15 411 395,33** |
| dövlət qiymətli kağızları | 8 299 868,42 | 11 300 982,91 |
| qeyri-dövlət qiymətli kağızları | 1 499 983,22 | 4 110 412,42 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | **312 500,00** | **364 583,00** |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair aktivlər** | **200 000,00** | **200 000,00** |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **11 491 167,18** | **17 070 129,53** |
| II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **2 144 954,83** | **1 737 023,99** |
| birbaşa sığorta üzrə | 303 171,95 | 229 603,94 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **615 717,49** | **243 373,56** |
| - təkrarsığortaçı üzrə | 458 744,56 | 114 658,41 |
| - təkrarsığortalı üzrə | 156 972,93 | 128 715,15 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 892 001,03 | 599 018,98 |
| iddia tələbləri üzrə | 0,00 | 0,00 |
| işçi heyəti üzrə | 0,00 | 0,00 |
| sığortalılara verilən borclar üzrə | 0,00 | 0,00 |
| sair debitorlar | 334 064,36 | 665 027,51 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **13 222 549,16** | **10 714 579,46** |
| kassa | 0,00 | 0,00 |
| esablaşma hesabı | 977 775,90 | 616 774,27 |
| valyuta hesabı | 163 055,03 | 40 540,12 |
| depozit hesablar | 12 000 000,00 | 10 000 000,00 |
| sair pul vəsaitləri | 81 718,23 | 57 265,07 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **3 000 000,00** | **0,00** |
| dövlət qiymətli kağızları | 3 000 000,00 | 0,00 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **805 839,67** | **746 671,85** |
| həyat sığortası sahəsi üzrə | 0,00 | 0,00 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 805 839,67 | 746 671,85 |
| **Sair qısamüddətli aktivlər:** | **35 629,04** | **46 075,60** |
| gələcək hesabat dövrlərinin xərcləri | 34 471,52 | 36 775,51 |
| verilmiş avanslar | 0,00 | 0,00 |
| təhtəl hesablar | 1 157,52 | 9 300,09 |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **19 208 972,70** | **13 244 350,90** |
| **CƏMİ AKTİVLƏR** | **30 700 139,88** | **30 314 480,43** |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | İlin əvvəlinə |
|---|---|---|
| I . KAPİTAL | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **14 007 000,00** | **14 007 000,00** |
| **Emissiya gəliri** | **0,00** | **0,00** |
| **Geri alınmış kapital (səhmlər)** | **0,00** | **0,00** |
| **Kapital ehtiyatları:** | **0,00** | **0,00** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0,00 | 0,00 |
| digər kapital ehtiyatları | 0,00 | 0,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **4 825 413,16** | **5 575 646,81** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1 693 559,06 | 1 750 334,30 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | 0,00 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 3 131 854,10 | 3 825 312,51 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | **18 832 413,16** | **19 582 646,81** |
| II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Sığorta ehtiyatları:** | **9 188 464,16** | **7 927 394,14** |
| Həyat sığortası sahəsi üzrə: | 0,00 | 0,00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 9 188 464,16 | 7 927 394,14 |
| **Qarşısıalınma tədbirləri fondu** | **1 611 172,61** | **1 623 675,34** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0,00** | **0,00** |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | **0,00** | **0,00** |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | **0,00** | **0,00** |
| **Kreditor borcları:** | **0,00** | **0,00** |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 0,00 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **522 005,56** | **563 388,16** |
| təkrarsığortaçı üzrə | 522 005,56 | 563 388,16 |
| təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair öhdəliklər+B12** | **0,00** | **0,00** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **11 321 642,33** | **10 114 457,64** |

| III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
|---|---|---|
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0,00** | **0,00** |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | **50 205,01** | **57 448,59** |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **0,00** | **0,00** |
| **Kreditor borcları:** | **495 879,38** | **559 927,39** |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 41 114,33 | 46 540,06 |
| digər məcburi ödənişlər üzrə | 21 056,17 | 49 749,77 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 433 708,88 | 463 637,56 |
| **Sair qısamüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair öhdəliklər** | **0,00** | **0,00** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **546 084,39** | **617 375,98** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **11 867 726,72** | **10 731 833,62** |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | **30 700 139,88** | **30 314 480,43** |

## MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **8 364 479,47** |
| birbaşa sığorta üzrə sığorta haqları | 7 829 536,97 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 481 499,56 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 1 450,25 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 51 992,69 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **1 201 902,20** |
| **İnvestisiya gəlirləri üzrə** | **2 682 443,39** |
| **Subroqasiya gəlirləri** | **404 686,73** |
| **Sair gəlirlər** | **659 789,09** |
| **CƏMİ GƏLİRLƏR** | **13 313 300,88** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **3 795 281,17** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 1 836 135,67 |
| qaytarılan sığorta haqları üzrə | 27 711,54 |
| tənzimləmə xərcləri | 259 160,28 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 1 615 375,95 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 56 897,73 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 0,00 |
| **İşlərin aparılması xərcləri** | **6 679 911,31** |
| **Sair xərclər** | **593 514,20** |
| **CƏMİ XƏRCLƏR** | **11 068 706,68** |
| **Maliyyə mənfəəti (zərəri)** | **2 244 594,20** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **2 244 594,20** |
| **Mənfəət vergisi** | **494 259,90** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **1 750 334,30** |

## KAPİTALDA DƏYİŞİKLİKLƏR BARƏDƏ HESABAT

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | CƏM |
|---|---|---|---|
| **Yanvar 01, 2025** | **14 007 000** | **4 825 313** | **18 832 313** |
| Dövr ərzində Mənfəət və ya Zərər | 0 | 1 750 334 | 1 750 334 |
| Ödənilmiş dividend | 0 | 1 000 000 | 1 000 000 |
| **Dekabr 31, 2025** | **14 007 000** | **5 575 647** | **19 582 647** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | 2025 |
|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin axını** | |
| Sığorta və təkrarsığorta haqlarından daxilolmalar | 8 250 912 |
| Təkrarsığortaya ötürülən müqavilələr üzrə ödənişlər | -1 487 080 |
| Qaytarılmalı olan sığorta haqları üzrə ödənişlər | -13 332 |
| Sığorta və təkrarsığorta hadisələri üzrə ödənişlər | -2 097 371 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 341 519 |
| Komissiya ödənişləri | -65 143 |
| Əmək haqqı fondu üzrə ödənişlər | -4 562 400 |
| Ümumi və İnzibati xərclər üzrə ödənişlər | -1 739 122 |
| Marketinq və reklam xərcləri üzrə ödənişlər | -33 321 |
| Subroqasiya üzrə daxilolmalar | 404 218 |
| Digər daxilolmalar / ödənişlər | 129 878 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən xalis pul axını** | **-871 242** |
| **Mənfəət vergisi üzrə ödənişlər** | 0 |
| **Əməliyyat fəaliyyətindən xalis pul axını** | **-871 242** |
| **İnvestisiya fəaliyyətindən pul axını** | |
| İnvestisiya fəaliyyətindən daxilolmalar | 2 358 373 |
| Qiymətli Kağızların alışı | -2 610 429 |
| Qiymətli Kağızların satışı | 0 |
| Banklarda yerləşdirilən depozitlər | -10 000 000 |
| Banklarda yerləşdirilən depozitlərin qayıdışı | 12 000 000 |
| Əsas vəsait və qeyri-maddi aktivlərin alışı | -384 626 |
| Əsas vəsait və qeyri-maddi aktivlərin satışı | 0 |
| İdarəçilik xərcləri | -4 871 |
| Digər müəssisələrə investisiya qoyuluşu | -52 083 |
| Dividenddən daxilolmalar | 0 |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul axını** | **1 306 363** |
| **Maliyyə fəaliyyəti üzrə pul axını** | |
| Dividend ödənişi | -950 000 |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul axını** | **-950 000** |
| Məzənnə fərqi (müsbət) | 17 866 |
| Məzənnə fərqi (mənfi) | -12 657 |
| **Pul və pul vəsaitlərində xalis artma / (azalma)** | **-509 670** |
| Dövrün əvvəlinə pul və pul vəsaitləri | 1 222 549 |
| Dövrün sonuna pul və pul vəsaitləri | 712 879 |

M ənd J Konsaltinq

**"Azsığorta" ASC-nin rəhbərliyinə və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə Müstəqil Auditorun Hesabatı**

**Rəy**

Biz "Azsığorta" ASC-nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2025 il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Milli Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2025 il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Milli Standartlarına (MHMS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı Maliyyə Hesabatlarını MHMS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan Maliyyə Hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən Maliyyə Hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin Maliyyə Hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə Hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Cəmiyyətin Maliyyə Hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə Cəmiyyətin Maliyyə Hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Cəmiyyətin Maliyyə Hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Cəmiyyətin Maliyyə Hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və Maliyyə Hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

27 fevral 2026-cı il

Bakı, Azərbaycan Respublikası E.Cəfərov

# "Gələcəkdə Azərbaycandan qaz tədarükünün artırılması potensialı mövcuddur"



Bunu Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen Cənub Qaz Dəhlizi üzrə Məşvərət Şurası nazirlərinin 12-ci iclası və "Yaşıl" enerji üzrə Məşvərət Şurası nazirlərin 4-cü iclasının yekunlarına dair mətbuat konfransında bildirib.

*"Azərbaycandan aldığımız qaz bizim üçün son dərəcə vacibdir. Biz əməkdaşlıqdan və idxalı artıra bilməyimizdən çox məmnunuq. Hesab edirik ki, gələcəkdə daha çox qaz almaq potensialı var",* – o bildirib.

Avrokomissar qeyd edib ki, Avropa İttifaqı gələcəkdə fosil yanacaqlardan asılılığın aradan qaldırılmasına gətirib çıxaracaq keçid prosesindədir.

*"2050-ci ilə qədər biz karbon neytrallığına nail olmalıyıq. Lakin eyni zamanda aydındır ki, qısa və orta müddətli perspektivdə bizə hələ də əhəmiyyətli həcmdə qaz lazım olacaq",* – deyə o bildirib.

Yorgensen vurğulayıb ki, Azərbaycan və Aİ bərpa olunan enerji mənbələri sahəsində də əməkdaşlıq edir.

# "Cənub Qaz Dəhlizinə qoyulan investisiyalar artıq geri qayıdır"



"Cənub Qaz Dəhlizinə (SGC) qoyulan investisiyalar artıq özünü doğruldur və layihənin genişləndirilməsi istiqamətində Avropa İttifaqı ilə dialoq davam etdirilir".

Trend xəbər verir ki, bunu energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərinin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin 4-cü iclası çərçivəsində keçirilən mətbuat konfransında deyib.

*"Cənub Qaz Dəhlizi uzunmüddətli strateji xarakterli layihədir. Şübhəsiz ki, bu layihəyə yönəldilmiş bütün investisiyalar artıq geri qayıtmaqdadır və layihə bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Sözsüz ki, bu, ölkəmizə əhəmiyyətli həcmdə gəlir gətirən strateji layihədir. Gələcəkdə onun daha da genişləndirilməsini arzu edirik və bu məqsədlə Avropa İttifaqı ilə müzakirələr aparırıq",* - nazir vurğulayıb.

# Enerji sektorunda Bolqarıstanla strateji tərəfdaşlıq əlaqələri uğurla inkişaf edir



3 mart 2026-cı il tarixində SOCAR-ın prezidenti Rövşən Nəcəf Bolqarıstan Respublikasının energetika naziri vəzifəsini müvəqqəti icra edən Trayço Traykov ilə görüşüb. SOCAR-dan verilən məlumata görə, görüşdə Azərbaycan ilə Bolqarıstan arasında uzunmüddətli strateji tərəfdaşlıq əlaqələrinin enerji sektorunda da uğurla inkişaf etdiyi qeyd olunub.

Bu xüsusda, SOCAR-ın Bolqarıstanda ofisinin açılmasının enerji sektorunda əməkdaşlığın dərinləşməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Söhbət zamanı Cənub Qaz Dəhlizinin, o cümlədən Trans-Adriatik Boru Kəməri (TAP) və Yunanıstan–Bolqarıstan İnterkonnektoru (IGB) layihələrinin Bolqarıstana etibarlı və fasiləsiz təbii qaz təchizatının təmin edilməsində rolu xüsusi qeyd olunub.

Görüşdə SOCAR ilə Bolqarıstanın enerji şirkətləri arasında əməkdaşlığın genişləndirilməsi imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Avstriya ilə energetika sahəsində əməkdaşlıq müzakirə edilib

Bu barədə Azərbaycanın energetika naziri Pərviz Şahbazov "X" hesabında paylaşım edib. "Avstriyanın İqtisadiyyat, Enerji və Turizm Federal Nazirliyinin Baş katibi Severin Qruber ilə görüşdük. Mərkəzi Avropada təbii qaz üzrə əsas tranzit qovşaqlarından biri olan Avstriya ilə əməkdaşlığımızın xam neftlə yanaşı, təbii qaz tədarükünü əhatə etməsini məmnunluqla qeyd etdik. Dayanıqlı enerji təhlükəsizliyi üçün təbii qazla bağlı praqmatik siyasətin vacibliyi ilə bağlı fikirlərimizi bölüşdük", - paylaşımda qeyd edilib.

# "Azərbaycan Avropanın etibarlı qaz təchizatçısıdır"

"Düşünürəm ki, gələcəkdə əməkdaşlıq genişləndiriləcək".

Bunu energetika naziri Pərviz Şahbazov bu gün Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərinin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin 4-cü iclası çərçivəsində keçirilən mətbuat konfransında deyib.

"Bizim Avropa İttifaqı (Aİ) ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədimiz var. Biz bu formatda çox sıx işləyirik. Biz bu sənəd çərçivəsində həm Cənub Qaz Dəhlizi, həm "yaşıl enerji" layihələri formatında çox sıx əməkdaşlıq edirik. Buraya digər istiqamətlər də daxildir. İstər enerji səmərəliliyi, istər karbon emissiyalarının azaldılması və bir sıra digər enerji sahəsinə aid olan məsələlər də bu əməkdaşlığın ayrılmaz hissəsidir", - nazir əlavə edib.

"Son illərdə xüsusilə Avropada enerji təhlükəsizliyi sahəsində ortaya çıxan məsələlərin həlli məqsədilə Avropaya təchiz etdiyimiz təbii qaz xüsusi rola malikdir. Bu gün biz bu əməkdaşlığın gələcəkdə necə inkişaf etdirməli olacağımız haqqında geniş dialoq apardıq. Düşünürəm ki, növbəti mərhələdə bu əməkdaşlıq daha da genişləndiriləcək", - Şahbazov vurğulayıb.



## Zakir İbrahimov 4-cü “Yüksəliş” müsabiqəsinin qalibləri ilə Mentorluq proqramının yekunlarına dair görüş keçirib

“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İdarə Heyətinin sədri Zakir İbrahimov 4-cü “Yüksəliş” müsabiqəsinin Mentorluq proqramı çərçivəsində müsabiqə qalibləri Aslan Həsənli və Rüfət Məmmədxanlı ilə proqramın nəticələrinə həsr olunmuş yekun görüş keçirib.

Bir ili əhatə edən Mentorluq proqramının yekunlarına dair keçirilən görüşdə Zakir İbrahimov qaliblərin ötən müddət ərzində nümayiş etdirdikləri aktivliyi və fərdi inkişaf planı üzrə əldə etdikləri nailiyyətləri yüksək qiymətləndirib. Sədr vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsis edilən “Yüksəliş” müsabiqəsi ölkəmizdə müasir idarəçilik prinsiplərinə yiyələnmiş yeni nəsil rəhbər kadrların yetişməsində müstəsna rol oynayır.



Görüş zamanı proqram müddətində müzakirə olunan dövlət idarəetmə metodları, strateji qərarların qəbulu, korporativ idarəçilik və səmərəli kommunikasiya mövzularının qaliblərin gələcək fəaliyyətlərində tətbiqi məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Zakir İbrahimov mentorluq müddətinin başa çatması münasibətilə qalibləri təbrik edərək, onlara peşəkar fəaliyyətlərində və dövlətçiliyimizin inkişafı naminə gələcək addımlarında uğurlar arzulayıb.

“Yüksəliş” müsabiqəsinin qalibləri Aslan Həsənli və Rüfət Məmmədxanlı bir il ərzində göstərilən diqqətə, şəxsi və peşəkar inkişafları üçün yaradılan şəraitə, həmçinin zəngin idarəçilik təcrübəsini onlarla bölüşdüyünə görə mentor Zakir İbrahimova dərin minnətdarlıqlarını bildiriblər. Qaliblər bu müddət ərzində əldə etdikləri bilik və bacarıqların onların liderlik keyfiyyətlərinin formalaşmasında həlledici rol oynadığını qeyd ediblər.

Görüşün yekununda Zakir İbrahimov Mentorluq proqramını uğurla başa vuran hər iki müsabiqə qalibinə Xasiyyatnamə təqdim edib.

## DVX-nin nümayəndə heyəti Beynəlxalq Antikorrupsiya Akademiyasına səfər edib

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) İnsan resursları baş idarəsinin rəis müavini Ceyhun Mehdiyev və Tədris Mərkəzinin rəis müavini Mirəli Kazımov mənzil qərargahı Avstriyanın Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyasına (International Anti-Corruption Academy – IACA) işgüzar səfər ediblər.***



Səfər DVX-nin korrupsiyaya qarşı mübarizə sahəsində institusional inkişaf prioritetləri, şəffaflığın və hesabatlılığın artırılması, etik idarəetmə mexanizmlərinin gücləndirilməsi istiqamətində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi məqsədi daşıyıb.

Görüşlər zamanı 2012-ci ildə iki qurum arasında imzalanmış Anlaşma Memorandumunun icra vəziyyəti nəzərdən keçirilib, əməkdaşlığın daha sistemli, davamlı və nəticəyönümlü mərhələyə keçirilməsi imkanları müzakirə edilib. Antikorrupsiya mexanizmlərinin təkmilləşdirilməsi, etik risklərin idarə olunması, liderlik və insan kapitalının inkişafı sahələrində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi perspektivləri diqqət mərkəzində olub.

Eyni zamanda, həyata keçiriləcək birgə fəaliyyətin vahid tədbirlər planı formatında strukturlaşdırılması barədə qarşılıqlı razılıq əldə olunub və əməkdaşlığın mərhələli və koordinasiyalı şəkildə davam etdirilməsi imkanları nəzərdən keçirilib.

Beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, müasir idarəetmə standartlarının tətbiqi və antikorrupsiya prinsiplərinin institusional səviyyədə gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin tərkib hissəsi olan səfər çərçivəsində birgə elmi tədqiqat fəaliyyəti, ekspert mübadiləsi, eləcə də DVX-nin Tədris Mərkəzinin region ölkələri üçün mümkün təlim və əməkdaşlıq platforması kimi istifadəsi imkanları üzrə də fikir mübadiləsi aparılıb.

# “AzerGold”un strateji inkişaf prioritetləri müzakirə olunub

“AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov “Wood Mackenzie” beynəlxalq konsaltinq şirkətinin vitse-prezidenti Malkolm Forbs Kablın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Z.İbrahimov ölkəmizdə aparılan iqtisadi islahatlar, əlverişli investisiya mühiti və dağ-mədən sənayesinə göstərilən dövlət dəstəyi sayəsində QSC-nin fəaliyyət sahələrində mühüm nailiyyətlər və geniş təcrübə qazandığını qeyd edib.



Görüşdə “AzerGold”un strateji inkişaf prioritetləri, istehsalın artırılması və beynəlxalq bazarlara çıxış planları müzakirə olunub. Qeyd edilib ki, yaxın illərdə yeni yataqların istismara verilməsi və 2028-ci ildən yeni istehsal mərhələsinə başlanılması planlaşdırılır. İnsan kapitalının gücləndirilməsi və beynəlxalq təcrübənin tətbiqi əsas hədəflər sırasındadır. Bildirilib ki, şirkət uzunmüddətli perspektivdə beynəlxalq genişlənməni prioritet hesab edir və xüsusilə qızıl, həmçinin perspektivli hallarda mis yataqları üzrə xarici layihələrə maraq göstərir. İnvestisiya baxımından sabit və hüquqi bazası aydın olan ölkələrə, eləcə də mövcud infrastruktur və hasilat bazasına malik “brownfield” layihələrə üstünlük verilir. Potensial əməkdaşlıq istiqamətləri kimi Mərkəzi Asiya ölkələri – Özbəkistan və Qazaxıstan qeyd olunub. Afrika ölkələrində də ilkin müzakirələrin aparıldığı bildirilsə də, bəzi regionlarda siyasi və institusional risklərin mövcudluğu vurğulanıb.

Malkolm Forbs Kabl təmsil etdiyi “Wood Mackenzie” şirkətinin mədən sənayesi, enerji, neft-qaz və investisiya strategiyaları sahəsində qlobal təcrübəsindən bəhs edib. Fərqli ölkələrdə mədən sektorunda qanunvericiliyin təkmilləşdirilməsi, investisiyaların cəlbediciliyinin artırılması üzrə layihələr barədə məlumat verilib. Görüşdə Azərbaycanın mədən sektorunda beynəlxalq təcrübənin tətbiqi, analitik alətlərdən istifadə və rəqabət qabiliyyətinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.Tərəflər qarşılıqlı maraq doğuran istiqamətlər üzrə müzakirələrin davam etdirilməsi barədə razılığa gəliblər.

# Dövlət Vergi Xidmətində əməkdaşlarla görüş keçirilib

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində (DVX) 11 fevral – Vergi xidməti işçilərinin peşə bayramı münasibətilə təltif olunan əməkdaşlarla və gənc işçilərlə görüş keçirilib.

Tədbirdə mentorluq proqramına həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra çıxış edən Xidmət rəisinin müşaviri, İnsan resursları baş idarəsinin rəisi Aytən Kərimova DVX-də gənc əməkdaşlar üçün tətbiq olunan mentorluq proqramı ilə bağlı ətraflı məlumat verib, proqramda fəal iştirak edən mentorlara təşəkkürünü bildirib. Baş idarə rəisi bu proqramın təşkilati dəyərlərin gənc əməkdaşlar arasında təşviqinə və daxili mədəniyyətin davamlılığının təmin olunmasına xidmət etdiyini vurğulayıb. Tədbirdə çıxış edən DVX rəisi Orxan Nəzərli Xidmətin strateji prioritetləri və institusional inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb.

DVX rəisi vergi orqanlarında peşəkarlıq ənənələrinin qorunmasının və biliklərin davamlı ötürülməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, mentorluq proqramı gənc əməkdaşların potensialının üzə çıxarılması və təşkilati dəyərlərin gündəlik fəaliyyətə inteqrasiyası baxımından mühüm rol oynayır.

Görüş çərçivəsində peşə bayramı münasibətilə fərqlənmiş əməkdaşlara təltiflər təqdim olunub, xatirə şəkilləri çəkilib.




# Azərbaycanın qızıl ixracından gəliri 56%-dən çox artıb

Bu ilin yanvar ayında Azərbaycandan 33 milyon ABŞ dolları dəyərində qızıl ixrac edilib.

Bu barədə Trend İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) “İxrac icmalı”nın fevral sayına istinadən xəbər verir.

Məlumata görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 11,9 milyon ABŞ dolları və ya 56,4% çoxdur.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında bu göstərici ilə qızıl (33 milyon ABŞ dolları) birinci olub.



Qeyd edək ki, bu ilin yanvar ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 9% artaraq 268,4 milyon ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 22,6% artaraq 103 milyon ABŞ dollarına bərabər olub.

## BƏT-in daha bir Konvensiyasının ratifikasiya edilməsi imkanları araşdırılır

Prezident cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”nın Tədbirlər Planında Beynəlxalq Əmək Təşkilatının (BƏT) “Sosial təminatın minimum normaları haqqında” 102 saylı Konvensiyasının ratifikasiya edilməsi imkanlarının araşdırılması nəzərdə tutulub.




Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət olmaqla yaradılmış işçi qrupunun iclası keçirilib.

İclasda Nazirliyin və Xarici İşlər Nazirliyinin, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələri iştirak ediblər.

İşçi qrupun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev ötən dövrdə ölkəmizin BƏT-in 60-dək Konvensiyasına, o cümlədən 10 fundamental Konvensiyasından 9-na qoşulduğunu qeyd edib. Həmçinin, keçən il Azərbaycanla BƏT arasında yeni “2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı”nın imzalandığı vurğulanıb.

Son illər Azərbaycanda aparılan ardıcıl sosial islahatların sosial təminat sisteminin gücləndirilməsi sahəsində də mühüm irəliləyişlərə imkan yaratdığı bildirilib.

İclasda “Sosial təminatın minimum normaları haqqında” Konvensiyanın ratifikasiya edilməsi imkanlarının araşdırılması sahəsində görülən işlərə dair təqdimat olub, bu mövzuda müzakirələr aparılıb.

# Azərbaycan neftinin qiyməti 86 dolları ötüb

İtaliyanın Auqusta limanında “Azeri Light” markalı Azərbaycan neftinin CIF bazasında qiyməti əvvəlki göstərici ilə müqayisədə 6,56 ABŞ dolları və ya 8,2 faiz artaraq bir barel üçün 86,16 ABŞ dolları təşkil edib.



Bu barədə Trend-ə neft bazarındakı mənbə məlumat verib. Bildirilib ki, Türkiyənin Ceyhan limanında “Azeri Light” markalı neftin FOB bazasında da bir barelinin qiyməti 6,14 dollar və ya 8 faiz bahlaşaraq 82,93 dollar olub. URALS markalı xam neftin qiyməti əvvəlki göstərici ilə müqayisədə 6,42 dollar və ya 14,5 faiz artaraq bir barel üçün 50,67 dollara çatıb.

Şimal dənizində hasil edilən “Dated Brent” markalı neftin qiyməti isə əvvəlki göstərici ilə müqayisədə 7,05 dollar və ya 9,1 faiz artaraq bir barel üçün 84,87 dollara çatıb.

Azərbaycanın 2026-ci il dövlət büdcəsində bir barel neftin orta qiyməti 65 ABŞ dolları səviyyəsində nəzərdə tutulub.

# Elmi irsi müasir elmi təfəkkür baxımından daim öyrənilir







***Bu günlərdə iqtisadçı-alim, iqtisad elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Ərəstun Həmzə oğlu Axundovun 100 illiyi qeyd olunmuşdur.***

UNEC-in İqtisadiyyat və İdarəetmə fakültəsində görkəmli alim Ərəstun Axundovun 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə alimin elmi fəaliyyəti, iqtisadi fikir tarixində rolu və gənc nəslə qoyduğu dəyərli irs haqqında geniş müzakirələr aparılmışdır.

***Tədbirdə görkəmli alimin əziz xatirəsi dərin hörmət və ehtiramla anılmışdır.***



Axundov Ərəstun Həmzə oğlu 1926-cı ildə Masallı rayonunun Mollabad kəndində anadan olmuşdur. 1949-cu ildə orta məktəbi bitirmiş və könüllü olaraq sovet ordusu sıralarında xidmət etmişdir. 1942-ci ildən 50-ci illərin ortalarına kimi ordu sıralarında olmuşdur. Bu müddət ərzində hərbi təhsilə də yiyələnə bilmişdir. Ordu sıralarından tərxis olunduqdan sonra Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. 1955-ci ildə tarix fakültəsinin siyasi iqtisad ixtisasını əla qiymətlərlə başa vurmuşdur. 1955-1967-ci illər ərzində o, M.F.Axundov adına APİ-də Siyasi-iqtisad kafedrasında baş müəllim, dosent, sonra isə kafedra müdiri vəzifələrində çalışmışdır. 1967-1990-cı illər ərzində Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda dosent, professor və kafedra müdiri işləmişdir. Professor Ə.Axundov öz elmi, pedaqoji fəaliyyətində həmişə öncül mövqelərdə çıxış edən alim olmuşdur. Təsadüfi deyildir ki, o öz elmi fəaliyyətini siyasi iqtisad elminin ən az tədqiq edilən sahəsinə yönəltmiş, "Vaxta qənaət qanunu" və onun həyata keçirilməsi problemlərinə həsr etmişdir. 1960-cı ildən başlayaraq "Vaxta qənaət qanunu"na aid ilk sanballı əsərini yazmışdır. 1962-ci ildə Kiyev şəhərində namizədlik dissertasiyası müdafiə etmişdir. 1965-ci ildə isə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı almışdır. "Vaxta qənaət qanunu" ilə əlaqədar Ərəstun Axundovun aparmış olduğu ümumiləşdirmələr yeni bütöv elmi istiqamətin müəyyənləşdirilməsinə səbəb olmuşdur. ***Beləliklə, o, keçmiş SSRİ məkanında "Vaxta qənaət qanunu" ilə bağlı elmi istiqamətin yaradıcılarından biri kimi fəaliyyət göstərməyə başlamışdır. Bu elmi istiqamət onun 1997-cu ildə doktorluq dissertasiyası müdafiə etməsinə gətirib çıxarmışdır.***

1979-ci ildə o, professor elmi adını almışdır. 1982-1987-ci illər ərzində Ə.Axundov "Xalq təsərrüfatının planlaşdırlması" fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1987-1990-ci illər ərzində ümumiqtisad fakültəsi üzrə Siyası iqtisad kafedrasının müdiri vəzifəsini icra etmişdir. İşlədiyi müddət ərzində o, iqtisad elminin nəzəri problemlərinin öyrənilməsində daim aktiv fəaliyyət göstərib. Ə.Axundov nəinki respublikamızda, həmçinin keçmiş sovet məkanında Azərbaycan iqtisadçılarının layiqli təmsilçisi olmuşdur. Siyasi iqtisadın mənimsənilməsi ilə əlaqədar o, diqqətini metodik baxımdan "Problem mühazirələr"in oxunması məsələsinə yetirirdisə, elmi-tədqiqat istiqamətində "Vaxta qənaət qanunu"nu araşdırırdı. Xüsusi qeyd etmək lazımdır ki, Ərəstun müəllim yalnız bu mövzunun birincisi deyil, eyni zamanda digər siyasi iqtisad problemlərinin dərin mütəxəssisi idi. Təkcə "Vaxta qənaət qanunu" ilə əlaqədar 30 ç.v. həcmində əsərlər dərc etmişdir. Azərbaycan iqtisadçı alimlərinin XX əsrin son 30 ili ərzində dərc olunan əsərləri sırasına Ə.Axundovun 1987-ci ildə 10 ç.v. həcmində dərc etdirdiyi "Sosializm şəraitində vaxta qənaət qanunu" sanballı bir monoqrafiya kimi daxil olmuşdur. ***O, elmi kadrların hazırlanmasında xüsusi fəallıq göstərirdi. Onun rəhbərliyilə 4 nəfər elmlər namizədi hazırlanmışdır. Onlarca doktorluq və namizədlik dissertasiyasının opponenti kimi çıxış etmişdir.*** Ərəstun müəllim respublikanın ictimai, siyasi həyatında olduqca fəal iştirak etmişdir. Böyük Vətən müharibəsi veteranı, Azərbaycan ziyalısının mütərəqqi nümayəndəsi kimi iqtisadi biliklərin yayılmasında fəal iştirak edirdi. Məhz bunun nəticəsi idi ki, onun məhsuldar elmi, pedaqoji fəaliyyəti respublikada yüksək qiymətləndirilmiş və ona Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adı verilmişdir. Bu gün də elmi ictimaiyyət, İqtisad Universitetinin əməkdaşları arasında Ərəstun Axundov böyük ehtiramla yad edilir, onun elmi irsi tələbələri və yetirmələri tərəfindən müasir elmi təfəkkür baxımından öyrənilir.

***Professor Ərəstun Axundov 1990-cı ildə dünyasını dəyişmişdir. Görkəmli alimin əziz xatirəsi onu tanıyanların, dostlarının, tələbələrinin qəlbində daim yaşayacaq.***




## Əməkdar həkim, professor Nəsibə Hüseynovanın 100 illik yubileyinə həsr olunmuş elmi simpozium keçirilib

***28 fevral 2026-cı il tarixində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi, Mərkəzi Gömrük Hospitalı və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə pediatriya sahəsində görkəmli alimlərin yubileyinə həsr olunmuş "Pediatriyada elmi irs və innovasiyalar: Hibrid dünyada uşaq olmaq" mövzusunda Beynəlxalq konqres öz işini Mərkəzi Gömrük Hospitalında davam etdirib.***

Konqres çərçivəsində təşkil olunan elmi simpozium Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar həkim, tibb elmləri doktoru, professor Nəsibə Hüseynovanın anadan olmasının 100 illik yubileyinə həsr olunub.

Simpoziumda açılış nitqi ilə çıxış edən Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim, tibb elmləri doktoru Bəxtiyar Musayev tədbir iştirakçılarını salamlayaraq, professor Nəsibə Hüseynovanın Azərbaycan pediatriyasının inkişafındakı müstəsna rolundan danışıb. O qeyd edib ki, alimin formalaşdırdığı elmi məktəb və yetişdirdiyi kadrlar bu gün də ölkəmizdə pediatriya sahəsinin inkişafına mühüm töhfələr verir.

Sonra tədbirin rəsmi açılış hissəsidə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi rəisinin müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev və Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Rauf Bəylərov çıxış edərək professor Nəsibə Hüseynovanın zəngin elmi irsinin pediatriyada klinik düşüncə tərzinin, elmi yanaşmanın və müasir müalicə prinsiplərinin formalaşmasında, eləcə də gənc həkimlərin və rezidentlərin hazırlanmasında mühüm rol oynaması barədə ətraflı danışıblar.

Daha sonra professor Nəsibə Hüseynovanın 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi rəisinin müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyevin və Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Rauf Bəylərovun moderatorluğu ilə keçirilən "Seliakiya və qida allergenlərinə yeni yanaşma: rəqəmsal pəhriz nəzarəti və sensor texnologiyaları" mövzusunda interaktiv paneldə ATU-nun Uşaq xəstəlikləri kafedrasının dosenti Sabirə Hüseynova və BTK-nın uzman dietoloqu Lala Mahmudova "Seliakiya və qida allergenlərinə yeni yanaşma: rəqəmsal pəhriz nəzarəti və sensor texnologiyaları" mövzusunda, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti Təranə Tağızadə "Uşaq qastroenterologiyasında klinik və bioetik çağırışlar", ATU-nun I Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Bayramova "Rəqəmsal bağırsaq sağlamlığı – Mikrobiota – Davranış – Ətraf mühit", Mərkəzi Gömrük Hospitalının şöbə rəisi, pediatr-neonatoloq-reanimatoloq Telman Aytayev "Uşaqlarda qaraciyər genetik və metabolik xəstəliklərinə ümumi yanaşma" mövzusunda çıxış ediblər.

Tibb üzrə fəlsəfə doktoru Gülnarə Nəsrullayeva, tibb üzrə fəlsəfə doktoru Nüşabə Mollayeva və Bəyaz Namazovanın moderatorluğu ilə keçirilən ikinci sessiyada Respublika Pediatriya Mərkəzinin həkimi Dr.Azər Əhmədov "Kəskin və xronik ishalın tele-tibbdə idarə edilməsi; Dehidratasiya riskinin Sİ analizləri", Mərkəzi Gömrük Hospitalının şöbə rəisi, uşaq cərrahı Dr.Vüsal Cəfərov "Uşaqlarda öd daşı xəstəliyinə müasir yanaşma", Mərkəzi Gömrük Hospitalının pediatr-neonatoloq-reanimatoloqu Dr.Təranə Göyüşova "Autizm spektr pozulması olan uşaqlarda vitamin və mikronutrient dəstəyi", Baku Medical Plaza klinikasında Pediatriya və Neonatologiya, Yenidoğulmuşların reanimasiyası şöbəsinin müdiri Dr.Erkin Rəhimov və MedEra klinikasının həkimi, t.ü.f.d. Dr.Əli Quliyev "Mini-debat: Uşaqlarda xroniki qəbzliyə multidissiplinar yanaşma", Mərkəzi Gömrük Hospitalının həkimi Dr.Aygün



Sadıxova "Uşaqlarda laktoz çatışmazlığı" mövzularında çıxış ediblər.

Professor Aytən Məmmədbəylinin, dos. Nigar Bayramovanın və t.ü.f.d. Əli Quliyevin moderatorluğu ilə keçirilən "İnteraktiv sessiya: Beynin inkişaf yolu və inkişaf geriliklərində qırmızı bayraq" panelində ATU-nun II Uşaq xəstəlikləri kafedrasının həkimi Dr.Nərgiz Məmmədova, Qarabağ Universiteti Tibb və Sağlamlıq Elmləri fakültəsinin dekan müavini, Qarabağ Universiteti Klinikasının Baş həkimi, dos.İkram Rüstəmov, Nitq və inkişaf pozulmaları üzrə uzman Dr.Nigar Həsənova çıxış ediblər.

Simpoziumun sonunda qeyd olunub ki, belə genişmiqyaslı və elmi baxımdan zəngin proqram pediatriya sahəsində aktual problemlərin müzakirəsi, innovativ yanaşmaların tətbiqi və multidissiplinar əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Çıxış edənlər vurğulayıblar ki, professor Nəsibə Hüseynovanın zəngin elmi irsinin işığında keçirilən bu simpozium həm milli pediatriya elminin inkişafına yeni impuls verir, həm də gənc mütəxəssislər üçün dəyərli təcrübə platforması rolunu oynayır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Davamlı Tibbi Təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları" əsasında akkreditasiya olunaraq 10 DTT balı ilə qiymətləndirilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# “Hazırlanan Dövlət Proqramının əsas məqsədi əhalinin dayanıqlı su təminatını təşkil etməkdir”




Bu sözləri Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə səsləndirib.

**O, deyib:** “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən hazırlanmış bu layihə təklifi iqtisadiyyatın inkişafı və artan əhali fonunda Bakı şəhərinin və Abşeron yarımadasının dayanıqlı su, içməli su, tullantı və yağış suları sisteminin təşkilini əks etdirir. Hazırlanan Dövlət Proqramının əsas məqsədi həyata keçirilən Bakı və Abşeron yarımadasında nəqliyyat, şəhərsalma və ərazi inkişaf layihələri fonunda əhalinin dayanıqlı su təminatını təşkil etməkdir. Məhz bu yanaşma əsasında 2026-2035-ci illəri əhatə edən Dövlət Proqramı Bakı şəhərində və Abşeron yarımadasında həm bugünkü, həm də perspektiv inkişaf hədəfləri ilə uzlaşmaqdadır”. Proqramın hazırlanmasında əsas amillərdən danışan Z.Mikayılov bildirib ki, Bakı şəhərindəki su və kanalizasiya sistemləri əsasən 1980-ci illərin sonuna qədər hazırlanmışdır və o gündən bu günə qədər yaşayış məntəqələrinin ərazisi 2,6 dəfə, əhalisi isə 2,1 dəfə artmışdır. Əsas magistral xətlərin istismar müddəti çoxdan başa çatmışdır, müasir nəzarət sistemləri də standartlara heç bir şəkildə cavab vermir. Bunların çoxunun ömrünün 40-50 il olmasını nəzərə alsaq, onların istismar müddəti artıq başa çatmışdır. Əksər yağış suyu kollektorlarının kanalizasiya xətlərinə qoşulması ilə sistemlərdə əlavə yükləmələr yaranmışdır.

Vaxtilə Bakıda mövcud olan yağış sistemlərinin hamısı 1990-cı illərdə kanalizasiya kollektoruna çevrilmişdir.

# “Bu, dövlət-özəl tərəfdaşlıq səviyyəsində bu miqyasda hazırlanan ilk layihədir”

***“Dəniz suyunun duzsuzlaşdırılması ilə içməli suyun istehsalı layihəsinin tenderinin qalibi Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti olmuşdur və bu, Azərbaycanda su sahəsində ilk dövlət-özəl tərəfdaşlıq layihəsidir”.***

Bu fikri Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə səsləndirib.

O, qeyd edib ki, Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı ilk dəfə belə bir meqalayihə sayəsində Bakı şəhərində və Abşeron yarımadasında faktiki istifadə olunan suyun 25 faizini təşkil edəcək. Bu da bizim gələcəkdə su təhlükəsizliyimizə çox böyük töhfə verəcək. Bu işlərə artıq başlanılmış, yer seçilmiş və bizim proqnozumuza görə, 2028-ci ilin sonuna qədər bu məsələnin başa çatdırılması nəzərdə tutulub.

# “Vacib olan məsələlərdən biri də Bakı şəhərində və Abşeron yarımadasında içməli suya tələbatın nəzərə alınmasıdır”

***“Abşeron yarımadasında bizim gündəlik orta hesabla 16 kubmetr istifadəmiz var. Bizim layihə gücümüz 19,1 kubmetrdir. Amma bildiyiniz kimi, burada orta hesabla 16 kubmetr olan rəqəm yay aylarında daha yüksək səviyyələrə qalxır. Pik tələbatımız Bakı və Abşeron yarımadasında 20,8 kubmetr/saniyə göstərir”.***

Bu sözləri Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə deyib.

**O, bildirib:** “İnkişaf proqnozlarına uyğun olaraq 2040-cı ildə, - bu proqram hazırda 2040-cı ilə qədər nəzərdə tutulub, - bu rəqəmlərin orta hesabla 20,7 litr kubmetr/saniyə, pik vaxtlarda isə, yəni yayın qızmar vaxtlarında və bəzi istiqamətlərdə bölgələrdə suyun gəlişində problemlər olduğu halda bu rəqəmin 26,9 kubmetr olması gözlənilir. Bununla əlaqədar bizim hazırladığımız Dövlət Proqramında, sadəcə, şəbəkələrin və magistralların genişləndirilməsi deyil, su mənbələrinin artırılması nəzərdə tutulmuşdur. Bunlardan biri təbii ki, qeyd etdiyimiz kimi, duzsuzlaşdırma layihəmizdir ki, o, illik 100 milyon kubmetrdən çox içməli su verəcək. Bu da günlük 3,2 kubmetr/saniyə əlavə su deməkdir. Bununla yanaşı, Sizin də qeyd etdiniz kimi, beş istiqamətdə - “Bakı-Şollar”-dan gələn iki istiqamətimiz, Kür təmizləyici qurğulardan gələn su mənbəyimiz, Oğuz-Qəbələ su mənbəyimizi də təkmilləşdirərək onlardan da əlavə suyun gətirilməsini nəzərdə tutmuşuq. Planlaşdırmışıq ki, bunun sayəsində biz həmin o pik səviyyəni 2030-cu ildə artıq əldə etmiş olacağıq. Bununla paralel olaraq, şəbəkə genişləndikdən sonra 2040-cı ilə qədər bütün tələbat təmin olunacaq və qarşılanacaq”.

Sonra Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov hazırda görülən işlər haqqında danışaraq, qeyd edib ki, şəhərin mərkəzindən keçən Sahil kollektoru və Zığ-Hövsan kanalizasiyası yenidən qurulur. Dərnəgül, Bakıxanov, Qaraçuxur, Hövsan kanalizasiyası, Pirşağı, Lökbatan, Müşfiqabad və Böyükşor istiqamətlərində işlər 2025-ci ilin ortalarında başlanmışdır. Burada əldə edəcəyimiz ilk nəticə təbii ki, Bakı buxtasının ekoloji mühitinin yaxşılaşdırılması olacaq. Çünki Sahil kollektoru işə düşdükdən sonra Bakı buxtasına axıdılan bütün çirkab su və yağış suları onun vasitəsilə oradan uzaqlaşdırılacaq. Ceyranbatan gölünün ekoloji mühafizə tədbirləri gücləndiriləcək. Çünki Müşfiqabad hövzəsi tikildikdən sonra o ətrafda yaranan bütün tullantı suları artıq Müşfiqabad təmizləyici qurğusuna və oradan da Sumqayıtçaya yönləndiriləcək. Bizim yarımadamızın şimal, şimal-şərq zonasında bütün kəndlərdəki əsas kanalizasiya sistemləri mənsəbləri yaradılaraq oradakı şəbəkələr həmin kollektorlara qoşulacaq.

İkinci mərhələdə isə Hövsan, Binə, Maştağa, Türkan – Şüvəlan hövzəsi, Ələt hövzəsi, Sahil, Pirallahı hövzələri üzrə kanalizasiya kollektorları tikiləcək ki, bu işlər də həyata keçirildikdən sonra bizim yarımadanın şərq tərəfində qalan bütün kəndlərin kanalizasiya sistemlərinin şəbəkələri onlara qoşularaq təmizləyici qurğulara yönləndiriləcək”.

# “Digər bir layihə Hövsan Aerasiya qurğusunun yenidən qurulmasıdır”

“Digər bir layihə, Bakı şəhərinin və Abşeron yarımadasının ən böyük təmizləyici qurğusu olan Hövsan Aerasiya qurğusunun modernləşdirilməsi, yenidən qurulması və orada dövlət-özəl tərəfdaşlıq potensialının araşdırılması nəzərdə tutulmuşdur”.

Bunu Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə deyib.

**O, bildirib:** “Bu istiqamətdə texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması üzrə Asiya İnkişaf Bankı ilə çox yaxından işlər görülmüş, artıq texniki-iqtisadi əsaslandırma son mərhələyə çatmış və digər qurumlara da öz rəylərinin verilməsi üçün təqdim olunmuşdur. Bu rəylər əsasında da dövlət-özəl tərəfdaşlığı modellərinin dəqiqləşdirilməsi aparılacaq.

Bu dəqiqləşdirmələr bitdikdən sonra həmin işlərin də bu ildən başlayaraq tenderlə həyata keçirilməsi nəzərdə tutulub. Dövlət Proqramı çərçivəsində bu su mənbələrinin dayanıqlı təmin edilməsi, suyun mənbədən götürülərək emalı, nəql edilməsi, saxlanılması və paylanması prosedurunun optimallaşdırılması nəzərdə tutulur”.

# “Bizdə sayğaclaşdırma Avropa İttifaqı ilə müqayisədə daha yüksək səviyyədədir”

Bu fikri Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə söyləyib.

**O, deyib:** “İçməli suya olan əlçatanlıq Azərbaycanda 73,4 faiz, təxminən 74 faiz, Avropa İttifaqında isə 95 faizdir. Fasiləsiz su təminatı Azərbaycan üzrə 72,5 faiz, Bakı və Abşeronda, - Siz də qeyd etdiniz, - 70 faizdir. Bunun fərqli olmasının səbəbi son illərdə rayonlarda, bölgələrdə aparılan böyük quruculuq işləridir. Odur ki, orada fasiləsiz suya əlçatanlıq daha yüksəkdir.

Gördüyünüz kimi, bizdə sayğaclaşdırma Avropa İttifaqı ilə müqayisədə daha yüksək səviyyədədir – 91,9 faiz, təxminən 92 faizə çatmaqdadır.

Su itkilərimiz isə daha yüksəkdir. Su itkiləri faktiki olaraq 38,6 faizdir ki, bu, Avropa İttifaqında orta hesabla 22 faizdir. Bununla yanaşı, Siz də qeyd etdiyiniz kimi, bizim itkilərimiz 46 faizə yaxındır. Çünki bununla yanaşı, bir də daxili istismarda olan sular var, onlar da itki olaraq nəzərə alınır. Avropada bu, 3 faiz olduğu halda, Azərbaycanda 9 faiz səviyyəsindədir”.

# “Bugünkü vəziyyətimizin qənaətbəxş olmasının səbəblərindən biri həmin bu proqramların həyata keçirilməsidir”

“2004-cü ildə birinci Dövlət Proqramı qəbul edildiyi dövrdə Azərbaycanda içməli su təminatı, sadəcə, 40 faiz, Bakı şəhəri və Abşeron yarımadasında isə 29 faiz səviyyəsində idi. Hazırda içməli su ilə təminat az öncə göstərdiyim kimi, Azərbaycanda 73 faizə, Bakı şəhəri və Abşeron yarımadasında isə 70 faizə çatdırılmışdır. Bu proqram çərçivəsində görülmüş işlərdən təbii ki, əvvəlcə həm “Taxtakörpü”, “Ceyranbatan” su anbarları, həm də ultrasüzgəcli sutəmizləyici qurğu – bunlar hamısı həmin proqram çərçivəsində həyata keçirilmiş və bizim su çatışmazlığı vəziyyətindən bugünkü daha yaxşı vəziyyətə gəlməyimizə çox böyük təsiri olmuşdur”.

Bunu Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə söyləyib.

**O, deyib:** “Dövlət başçısının Sərəncamı ilə Azərbaycanın yeni milli su strategiyası qəbul edilmişdir. Bu sənəddə su strategiyası əsas üç istiqamətdə qruplaşdırılmışdır. Birincisi, əhalinin içməli suya tələbatının tam ödənilməsi üçün yeni su mənbələrinin yaradılması, tələbatına uyğun olaraq içməli suyun əhaliyə fasiləsiz çatdırılması və çox vacib olan su təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər nəzərdə tutulmuşdur. Digər istiqamət su itkiləri ilə bağlıdır. Sizin də qeyd etdiyiniz çox vacib məsələ su itkilərinin qarşısının alınmasıdır. Buraya magistral kəmərlərin və ötürücü şəbəkələrin itkilərinin, nəzarətdənkənar istifadənin qarşısının alınması və sayğaclaşdırmanın tam başa çatdırılaraq suyun dəqiq uçotunun aparılması daxildir. Üçüncü istiqamət isə su-kanalizasiya və yağış suyu infrastrukturunun inkişafıdır. Bakı şəhəri və Abşeron yarımadasının kanalizasiya şəbəkəsi ilə tam əhatə edilməsi, yağış suyu kollektorlarının, sutoplayıcı şəbəkənin inkişaf etdirilməsi və çox vacib olan Xəzər dənizinin və göllərin ekoloji mühitinin yaxşılaşdırılması kimi məsələlər bizim milli su strategiyamızda öz əksini tapmışdır”.

# Son iki ayda büdcədən 25 milyon manat geri qaytarılıb

2026-cı ilin yanvar-fevral ayları ərzində dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 25 milyon 46,6 min manat məbləğində vəsait geri qaytarılıb.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Geri qaytarılan vəsaitlər fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə sahəsində aldıqları mallara, mədəniyyət (teatr, kino, muzey, konsert), tibbi xidmətlərə, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına ödənilmiş ƏDV-nin qaytarılmasına aiddir.

Bununla yanaşı, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsi, həmçinin artıq ödənilmiş digər vergilər, dövlət rüsumu, faizlər və maliyyə sanksiyaları da geri qaytarılıb.

# Qeyri-neft məhsulları ixracı 9% artıb

Bu ilin yanvar ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 9% artaraq 268,4 milyon ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 22,6% artaraq 103 milyon ABŞ dollarına bərabər olub.

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi “İxrac icmalı”nın 2026-cı il üzrə yanvar sayında bildirilib.

Cari ilin birinci ayında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 169,3%, pambıq iplik 137,6%, bitki və heyvan mənşəli piylər və yağlar 90,8%, alüminium və onlardan hazırlanan məmulatlar 39,5%, meyvə-tərəvəz 32,1%, pambıq lifi 23,2%, çay 20,9%, spirtli və spirtsiz içkilər 14,2% artıb.

2026-cı ilin yanvar ayında aqrar məhsullar üzrə ixrac 32,6% artaraq 85,7 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 21,9 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 23,8% artaraq 107,6 milyon ABŞ dolları təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl ( 33 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qabığı təmizlənmiş meşə fındığı (29,3 milyon ABŞ dolları) ikinci, xurma (təzə) (22,3 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar ayında Rusiya Federasiyasına 77 milyon ABŞ dolları, İsveçrəyə 38,6 milyon ABŞ dolları, Gürcüstana 31,6 milyon ABŞ dolları, Türkiyəyə 31,5 milyon ABŞ dolları, Ukraynaya isə 15,2 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2026-cı ilin yanvar ayı üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “AGRARCO” MMC, “Prime Cotton” MMC, “Baku Steel Company” QSC, “Prime LM” MMC, “KHAN-EL” MMC, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “AFA Export” MMC, “P-AQRO” MMC, “Mors Trading” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına “AzerGold” QSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “SOCAR Polymer” MMC, ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, “Azəraluminium” MMC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Naxçıvan Enerji” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Sənayecihaz” EİM, “SOCAR CAPE” MMC, “Qaradağ Şüşə Zavodu” ASC, “Azərxalça” ASC.

2026-cı ilin yanvar ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 32 ölkəsinə 1,5 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65%-ni təşkil edib.




Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 348,5 min ABŞ dolları ilə Birləşmiş Krallıq, 283 min ABŞ dolları ilə Lüksemburq, 187,2 min ABŞ dolları ilə İsveç, 72,4 min ABŞ dolları ilə Türkiyə, 69,6 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# SAĞLAM NƏSİLLƏRİN ƏSAS ŞƏRTİ





Hər bir uşağın həyatında ilk və ən vacib varlıq anadır. Uşaq dünyaya göz açdığı andan etibarən ilk sözləri, ilk addımları və ilk bilikləri anasından öyrənir. Ana ona danışmağı, gəzməyi, ətraf mühiti tanımağı öyrədir.

Valideyin yalnız bilik yox, həm də həyat dərsləri keçir. O, uşağa yaxşı ilə pisi ayırmağı, hörmətcil və mehriban olmağı öyrədir. Ananın zəhmətkeşliyi, mərhəməti və sevgisi uşağa örnək olur. Uşaq anasının davranışlarına baxaraq düzgün yol seçməyi öyrənir.

Ana sevgisi ən böyük dəstəkdir. O, hər zaman övladına inanır və onu ruhlandırır. Buna görə də ana insanın həyatında ilk və ən unudulmaz varlıq olaraq qalır.

**Uşağın ilk tərbiyəçilərindən biri də - uşaq bağçası müəllimləridir,** bir uşağın həyatında çox mühüm rol oynayırlar.

Onlar ailədən sonra uşağın ilk pedaqoqları olurlar. Bağçada uşaqlara ünsiyyət qurmağı, dostlaşmağı, oyuncaqları bölüşməyi və qaydalara əməl etməyi öyrədirlər. Müəllimlər onlara müstəqilliyə doğru ilk addım atmaqda kömək olurlar.

Bu iş böyük səbir, mehribanlıq və məsuliyyət tələb edir. Hər gün uşaqlara qayğı göstərir, saymağı, rəsm çəkməyi və ətraf mühiti tanımağı öyrədirlər. Oyunlar və maraqlı məşğələlər vasitəsilə müəllimlər uşaqların kiçik motorikasını, düşünmə qabiliyyətini, nitqini və yaradıcılıq bacarıqlarını inkişaf etdirirlər.

Müəllimlərin hər bir uşağa fərdi yanaşması, onların qabiliyyət və bacarıqlarını üzə çıxarmaq üçün göstərdikləri diqqət və qayğı xüsusilə təqdirəlayiqdir. Burada uşaqlara yalnız bilik deyil, eyni zamanda düzgün davranış, hörmət, dostluq və vətənpərvərlik kimi dəyərlər də aşılanır.

Uşaq bağçası müəllimlərinin zəhməti çox dəyərlidir. Onların qayğısı və sevgisi sayəsində uşaqlar özünə inamlı, xeyirxah və məktəbə hazır şəkildə böyüyürlər.

*Buna misal olaraq Suraxanı rayonu 323 saylı uşaq bağçasını xüsusilə qeyd etmək istərdim. Başda direktor Sadiqli Məshəti xanım olmaqla, müəllimlərin yüksək peşəkarlığı, səbri və fədakarlığı nəticəsində uşaqlarım sağlam mənəvi mühitdə, mehriban, savadlı və özünə inamlı şəxsiyyətlər kimi formalaşır.*

*Dayələrin isə uşaqlara qarşı qayğısı, diqqəti və sevgi dolu münasibəti balacaların özlərini təhlükəsiz və rahat hiss etməsinə şərait yaradır. Hər bir uşağa göstərilən istilik və anlayış bu bağçanı həqiqətən də nümunəvi təhsil müəssisəsinə çevirir.*

***Belə fədakar və qayğıkeş kollektivə dərin təşəkkür və minnətdarlığımı bildirirəm.***

Sizi 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, Sizin zəhmətiniz, səbriniz və sonsuz qayğınız hər gün balalarımızın simasında təbəssümə çevrilir. Siz onların kiçik dünyasında böyük iz buraxan, ilk uğurlarına sevinən dəyərli və unudulmaz insanlar olaraq qalacaqsınız.

**Lamiyə NƏBİYEVA**
*(valideyn)*




## TİBBDƏ PR

# Sosial şəbəkələrdə izləyiciləri cəlb edən və brend etibarını artıran PR məlumatları hansılardır?

Müasir dövrdə informasiya sürətlə yayılır və insanların diqqətini cəlb etmək üçün düzgün kontent növünü seçmək çox vacibdir. PR sahəsində, xüsusilə səhiyyə və tibbi kommunikasiya sahəsində, kontentin növü informativ, maarifləndirici və etibarlı olmalıdır.

PR sahəsində, insanların marağını çəkən və ən çox tələb olunan yanaşmalar bunlardır:

**1. Maarifləndirici məqalələr və bloq yazıları.**

*Bu tip yazılar oxucuya faydalı və gündəlik həyatda tətbiq edilə biləcək məlumatlar verir. Məsələn:*

- *Sağlam həyat tərzi və düzgün qidalanma haqqında sadə və praktik tövsiyələr;*
- *Xəstəliklərin qarşısının alınması üçün məsləhətlər;*
- *Müalicə üsulları və tibbi yeniliklər barədə etibarlı məlumatlar.*

İnsanlar səhiyyə mövzusunda düzgün və aydın məlumat almağı sevirlər. Əsas məqsəd oxucuya “bunu mən də tətbiq edə bilərəm” hissi verməkdir. Bu, həm etibar yaradır, həm də ictimaiyyətlə sağlam əlaqə qurmağa kömək edir.

**Niyə bu yanaşma effektivdir?**

- *İnsanlar sadəcə reklam və ya satış mesajları deyil, faydalı və informativ məlumat axtarırlar.*
- *Maarifləndirici yazılar paylaşılmağa və müzakirəyə səbəb olur, bu da sosial şəbəkələrdə təbii viral effekti yaradır.*
- *Oxucu, faydalı bilik əldə etdikdə sizin brendinizə və ya təşkilatınıza etibar edir.*

**2. Video və vizual materiallar**

Video, infoqrafik və şəkillər sosial şəbəkələrdə diqqət çəkmək üçün ən güclü vasitələrdəndir. İnsanlar yazılı məlumatdan daha çox vizual təcrübəyə maraq göstərir, çünki gözlə görmək, eşitmək və hiss etmək məlumatı daha asan yadda saxlamağa kömək edir.

Məsələn, qısa video tövsiyələr izləyicilərə faydalı və praktik məlumat verir. Bu, sağlam həyat tərzi, düzgün qidalanma və ya sadə tibbi məsləhətlər barədə ola bilər. Həkim müsahibələri də video formatında təqdim edildikdə, insanlara ekspertin fikrini birbaşa eşitmək imkanı verir və məlumat daha etibarlı görünür. Xəstə hekayələri isə real nümunələrlə insanların emosional əlaqəsini gücləndirir, onların marağını artırır və mesajı yadda qalan edir.

Vizual materiallar yalnız diqqət çəkmir, həm də paylaşılmağa daha çox meyillidir. İnsanlar faydalı və maraqlı videoları dostları ilə paylaşmaq istəyir, bu da mesajın təbii şəkildə daha geniş auditoriyaya çatmasına səbəb olur.

**Niyə video və vizual yanaşmalar effektivdir?**

- *İnsan beyninin vizual informasiyanı daha sürətlə qəbul etməsi;*
- *Emosional bağ yaratması və izləyicilərin hekayəyə qatılması;*
- *Sosial şəbəkələrdə paylaşım və viral potensialının yüksək olması;*
- *Məlumatın daha asan anlaşılan və yadda qalan formada təqdim olunması.*

Beləliklə, video və vizual materiallar məlumatın effektiv çatdırılması və brendin sosial mediada daha geniş tanınması üçün vacibdir.

**3. Sosial media postları**

Qısa, sadə və diqqətçəkən postlar günümüzün ən effektiv ünsiyyət vasitələrindən biridir. İnsanlar gündəlik sosial şəbəkələrdə çoxlu məlumatla qarşılaşır və onların diqqətini saxlamaq üçün mesajın qısa, aydın və maraqlı olması vacibdir.

Instagram, Facebook və Telegram kimi platformalarda sosial media postları günün ən vacib məqamlarını çatdırmaq, xəbərləri paylaşmaq və izləyicilərlə əlaqə qurmaq üçün idealdır. Məsələn, səhiyyə və tibbi kommunikasiya sahəsində qısa postlar vasitəsilə:

- *Sağlam həyat tərzi və gündəlik faydalı məsləhətlər təqdim etmək;*
- *Yeni tibbi xidmətlər və yeniliklər barədə məlumat vermək;*
- *Xəbər, tədbir və kampaniyalar haqqında izləyiciləri vaxtında xəbərdar etmək.*

Qısa və vizual cəlbedici postlar, həmçinin izləyicilərin marağını artırır və onları paylaşım etməyə həvəsləndirir. Bu, məlumatın daha geniş auditoriyaya çatmasına imkan yaradır və brendin sosial mediada baxış sayını artırır.

**Niyə sosial media postları effektivdir?**

- *İnsanlar qısa və vizual mesajları daha sürətlə qəbul edir;*
- *Postlar interaktiv ola bilər: şərh, bəyənmə və paylaşım vasitəsilə izləyici ilə birbaşa əlaqə yaradır;*
- *Müxtəlif platformalarda eyni mesajı fərqli formatlarda təqdim etməyə imkan verir;*
- *Brendin gündəlik aktivliyini izləyicilərə göstərir və etibar yaradır.*

Beləliklə, düzgün hazırlanmış sosial media postları brendin izləyici bazasını artırmaq, məlumatı tez çatdırmaq və auditoriyanı aktiv saxlamaq üçün vacib alətdir.

*(davamı gələn sayımızda)*



**Dilarə Zamanova,
Mərkəzi Gömrük
Hospitalının
PR mütəxəssisi**

# Bakcell müştəri xidmətlərində rəqəmsallaşmanı genişləndirir




İnnovasiya lideri Bakcell müştəri xidmətlərində proseslərin daha sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsi məqsədilə “SİMA” texnologiyası əsasında biometrik verifikasiya həllini tətbiq edib.

Yeniliyə əsasən, rəsmi satış nöqtələrində həyata keçirilən nömrə və cihaz satışı, nömrənin addan ada keçirilməsi, eləcə də nömrənin dublikatı xidmətinə dair əməliyyatlar zamanı müştərilərin identifikasiyası “SİMA” tərəfindən təqdim edilən üz tanıma texnologiyası əsasında icra olunur.

“SİMA” üzərindən tətbiq edilən biometrik verifikasiya təhlükəsizlik səviyyəsinin daha da gücləndirilməsinə xidmət edir və proseslərin icrasını sadələşdirir. Eyni zamanda, kağızsız sənəd dövriyyəsi sayəsində xidmət müddəti əhəmiyyətli dərəcədə qısalır və müştəri təcrübəsi optimallaşdırılır.

Bakcell müştəri xidmətlərində rəqəmsal həllərin tətbiqini mərhələli şəkildə genişləndirməyi planlaşdırır.

# “Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək” layihəsinin yekun hesabat tədbiri keçirilib

24 fevral 2026-cı il tarixində “AzerGold” QSC-nin təşəbbüsü və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) dəstəyi ilə həyata keçirilən “Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək” layihəsinin yekunlarına dair görüş keçirilib. Tədbirdə qurum rəhbərləri, rayon icra hakimiyyətləri, yerli icma nümayəndələri və fermerlər iştirak edib.

“AzerGold” QSC-nin İdarə Heyətinin üzvü – sədrin müavini, Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Xəyyam Fərzəliyev, AXA-nın sədri Sərdar Hacıyev, müvafiq olaraq Daşkəsən və Göygöl rayon icra hakimiyyətlərinin başçıları Orxan Abbasov və Vüqar Novruzov çıxış edərək layihənin əhəmiyyəti barədə danışıb, əsas nəticələri təqdim ediblər.

Qeyd edilib ki, heyvan, bitki, torpaq və su nümunələri üzrə aparılan geniş laborator analizlərin elmi təhlillərinə əsasən QSC-nin hasilat və istehsalat fəaliyyətinin təbiətə, torpağa və məhsuldarlığa hər hansı mənfi təsiri qeydə alınmayıb. Aqrokimyəvi analizlər nəticəsində ərazidəki su mənbələrinin suvarma üçün tam yararlı olduğu müəyyən edilib. Həmçinin təşkil olunan 37 təlim vasitəsilə iştirakçılar aqrar sahədə bilik və bacarıqlarını artırıblar.

Xatırladaq ki, icrasına ötən il başlanılmış lahiyə Daşkəsən rayonunun Şadax yaşayış məntəqəsini, Bayan, Quşçu, Çovdar və Çaykənd, Göygöl rayonunun isə Tüllallar və Zurnabad kəndlərini əhatə edib. Layihənin məqsədi heyvandarlıq və bitkiçilikdə məhsuldarlığı artırmaq, aqrar fəaliyyətin ekoloji tələblərə uyğun təşkili və yerli təsərrüfatlara elmi əsaslı dəstək göstərməkdir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500